# Şamlu

### I Şah İsmayıl dövrü (1501 – 1524)

Şamlular yazda Sivasın güneyindəki Uzunyaylada, qışda Hələb – Ayntab (Qaziantep) arasında yaşayan və Osmanlı dövründə Hələb Türkmənləri deyilən oymaqların ümumi adıdır. Bu ümumi ad Səfəvilərdən çox daha öncə Anadoluda istifadə olunurdu. Şamlular da Şeyx Cüneyddən bəri Ərdəbil təriqətinin ən əski müridləri arasında yer almışdılar. Şeyx Heydərin ən başda gələn xəlifələrindən Hüseyin Bəy, Şamluya mənsub idi. Dövlətin qurulması üzərinə lala (lələ) ləqəbini də daşıyan Hüseyin Bəy, öncə qeyd edildiyi kimi, əmirül-üməralığa gətirilmişdi (hicri 907-də = 1502). Hicri 914-də (1508-1509 = İlan ili) Şah İsmayıl səltənət vəkilliyini Rəştli Tacik Əmir Nəcm-i Zərgərə verib maliyyə işlərindən Türk əmirlərinin əllərini çəkdirmişdi. Bu misalın da göstərə biləcəyi kimi, dövlətin qurulmasında böyük əməyi keçmiş olan bəzi əmirlərə qarşı zaman keçdikcə təvəccühü azalan Şah İsmayıl ertəsi il Lələ Hüseyin Bəy əmirül-üməralıqdan çıxarıb Şirvan tərəflərdə bir yerin valiliyinə göndərmiş və 916-cı (1510-1511) ildə Xorasanın fəthi üzərinə onu Herat valisi təyin etmişdir. Təriqətin bu ən əski mənsubu və Şah İsmayılın ən yaxın iki əmirindən biri olan Lələ Hüseyin Bəy gördüyümüz kimi, Çaldıran savaşında ölmüşdür.

Şamludan digər böyük bir əmir də Əbdi Bəy idi. Əbdi Bəyin üç yüz atlı ilə Ərzincanda Şah İsmayıla qatıldığını yuxarıda söyləmişdik. Dövlətin qurulması üzərinə, Tavacı [başı] olan Əbdi Bəy, 912-də (1506-1507) Kürd Sarım ilə edilən savaşda ölmüşdü. Şamlunun hansı obasından olduğunu bilmədiyimiz Əbdi Bəyin Durmuş və Hüseyin adlı iki oğlunu tanıyırıq. Bunlardan ilki qısa bir zamanda yüksələrək ən mötəbər əmirlər arasında yer almışdır. Durmuş Xanın Çaldıran savaşında Ustacalu Məhəmməd Xanın düşmənə dincəlmə və savaş düzəninə girmə fürsəti vermədən hücum edilməsi təklifini rədd etdirdiyinə yuxarıda işarət edilmişdi. Durmuş Xan hicri 929-cu (1522-1523) ildə Mosullu Əmir Xanın yerinə Herat valisi təyin edilmiş və Sam Mirzənin lələsi olmuşdur. Şamludan digər bir əmir də Zeynal Xan idi. Onun anılan tarixdə Astarabad valiliyində bulunduğu görünür. Şamlular bundan sonra da etibarlarını sürdürmüşlər.

### I Şah Təhmasib dövrü (1524 – 1576)

Əmirül-ümərа Hüseyin Bəyin hicri 940-cı (1534) ildə öldürülməsindən sonra Şamlular etibardan düşmüşdülər. Onun öldürüldüyünü xəbər alan Herat valisi Dəmiri Sultan oğlu Ağzı Var Xan özünün də eyni aqibətə uğrayacağından qayğılanaraq, atabəyi olduğu Sam Mirzəni (təzkirə sahibi) də yanına alıb Qəndəhar tərəflərinə getmiş və orada Cağataylar (Baburlular) ilə etdiyi savaşda ölmüşdü (hicri 941 = 1535). Hicri 940-cı ildə qorucu başı olan Oğlan Xəlifə ləqəbli Məhəmməd Xəlifə də çox keçmədən vəzifəsindən uzaqlaşdırıldı. Hicri 941-də Ağzı Var Xanın yerinə Herat valisi təyin edilən Şamlu Xəlifə Sultan çox yaşlı olduğu halda Özbəklər ilə etdiyi savaşda öldürülmüşdü. Eyni ildə yenə Şamludan Mahmud Bəy və Əmət Bəy dirlik sahibi idilər. Hicri 954-cü (1547) ildə Təhmasib xəyanətdə ittiham etdiyi eyni oymaqdan Hüseyin Bəy ilə oğullarını tutdurdu. Bu illərə aid olaylarda adı keçən Şamlu bəylərindən biri də Çərəndab (Cərəndab) Sultan idi. Çərəndab Sultanın oğlu Abbas Əli Bəyi hicri 962-də (1556) Yaxa Türkmənlərindən Abanın üzərinə sövq edilən əmirlər arasında görməkdəyik. Yenə Şamludan Məcnun Sultan hicri 959-da (1552) Xorasanda İsfərain hakimi olduğu kimi, Vəli Xəlifə də 972-də (1564-1565) Qum valisi idi. Bir il öncə Şamludan Hüseyin Bəyi yasavul

başı olaraq görürük. Yenə bu oymaqdan Əhməd Xəlifə-i Vəfadara gəlincə, o hicri 975-də (1567-1568) Gilan fəthinə göndərilən əmirlər arasında bulunmaqdadır. Anlaşılacağı üzrə, Şamlunun böyük əmirləri sayca az olduqları kimi, bunlardan çoxu da xan ünvanı daşımır. İskəndər Bəyə görə Təhmasibin ölümü əsnasında (hicri 984 = 1576) Şamludan beş əmir vardı ki, bunlardan biri yuxarıda adı keçən Vəli Xəlifə idi. Vəli Xəlifə (Avcı obasından) anılan tarixdə Məşhəd valisi olub Şamlu bəyzadələrindən çoxu onunla bərabər bulunurdu. Yenə Şamludan Fulad Xəlifə Həmədan valisi, Astarabad valiliyindən çıxarılmış bulunan Süleyman Xəlifə də mərkəzdə oturmaqda idi.

**II Şah İsmayıl və Sultan Məhəmməd Xudabəndə dövrü (1576 – 1587)**

Ustacalular ilə birlikdə Səfəvi dövlətinin siyasi tarixində çox mühüm rol oynadıqları halda onlar kimi müəyyən bir yurdları yox idi; məşğul olduğumuz dövrdə çoxu, yaxud mühüm bir qismi Xorasanda, Herat valisi Əli Qulu Xanın buyruğunda bulunurdu. Özbək hökmdarı Abdullah Xan hicri 995-ci (1587) ildə Heratı mühasirəyə alaraq Əli Qulu Xanı təslim olmağa məcbur etdi. Özbəklər sözlərində durmayaraq Əli Qulu Xan başda olmaq üzrə Şamludan bir qismini öldürdülər. Bununla yanaşı Şah Abbas dövründə onların Qızılbaş oymaqlarının başında yer aldıqlarını görəcəyik.

**I Şah Abbas dövrü (1587 – 1629)**

Səlcuqlular dövründən bəri Hələb – Antep arasında qışlayan və Sivas – Gəmərək arasında yaylayan Türkmən oymaqlarına Farsca tarixlərdə Ətrak-i Şam və ya Türkmanan-i Şam, Türk xalqı arasında və Türkcə əsərlərdə də Şamlu deyilirdi. Bundan başqa Daşlıq Silifkədə eyni adda (yəni Şamlu) böyük bir oymaq yaşayırdı ki, bu oymaqdan bir çox obaların Kıbrısa (Kipr) yerləşdiklərini bilirik. Osmanlı dövründə rəsmi vəsiqələrdə Hələb Türkmənləri deyilən Hələb – Antep arasındakı topluluq başlıca Avşar, Bəydili, İnallu, Xudabəndəlü (Harmandalı, Xırmandalı, Harbəndəlü), Bayat kimi oymaqlara ayrılmışdı. Şeyx Cüneyddən bəri Səfəvi fəaliyyətlərinə qatılan, dövlətin qurulma və gəlişməsində mühüm xidmətlər ifa edən Şamlular, əsas etibariylə, yuxarıda adları anılan oymaqlardan bəzilərinin qollarından meydana gəlmişdir.

Şamlular, öncə bildirildiyi kimi, Səfəvi tarixində Ustacalulara tən bir rol oynamışdırlar. Şah Təhmasib Ustacalulara nə qədər etibar etmiş isə, Şah Abbas da buna yaxın dərəcədə Şamluları sevirdi. Adı keçən hökmdar öldüyü əsnada üçü xan, dördü sultan ünvanlı yeddi Şamlu əmirinə qarşılıq sultan ünvanı daşıyan üç Ustacalu əmirinin görünməsi bu məqamı açıqca meydana qoyur. Halbuki, anladıldığı kimi, Abbası Qəzvində taxta Ustacalu Mürşid Qulu Xan çıxartmışdı.

Abbasın ölümü əsnasındakı yeddi Şamlu əmirinin məmuriyyət yerləri eyni zamanda Şamluların oturduqları bölgələri də göstərir. Buna görə, Şamluların mühüm bir qismi, əskidən bəri olduğu kimi, Xorasanda yaşayır, bir bölüyü Reydə, bir bölüyü də Azərbaycanda otururdu. Anlaşılacağı üzrə, özəlliklə Abbasdan başlayaraq obaların yurdlarını çox dəfə bəylərinin məmuriyyət yerləri təşkil edirdi.

Şamlunun başlıca obaları bunlardır: Bəydili, İnallu, Xudabəndəlü, Avcı, Biçərlü, Əbdüllü, Kəramətli, Əcirlü (Acirlü), Ərəbgirlü, Nilqaz. Ünlü Durmuş Xan ailəsinin bu obalardan hansına mənsub olduğunu təsbit etmək mümkün olmadı.

a. Bəydili: Bəydili, bilindiyi üzrə Oğuz boylarından biri və Hələb Türkmənlərinin ən mühüm qollarındandır.Şah Abbasın ölümü əsnasında bu obanın başında Rey valisi Zeynal Xan bulunurdu. Zeynal Xan, Şah Səfi dövründə başsərkərdəlik mövqeyinə gətirilmiş isə də, hicri 1039-da (1629-1630) Hüsrəv Paşa ilə etdiyi savaşda yenildiyindən dolayı həyatına son verilmişdir. Ancaq qardaşları mövqelərini qorumuşlar.

Bəydili əmirlərindən biri də Gün Doğmuş Sultan olub, dirliyi Azərbaycan idi. Gün Doğmuş Sultan, Şah Abbasın Bağdadı fəthi əsnasında, bulunduğu Tauk (əski Dakuka) və Kərkükdən Səfəvi hökmdarının qatına gələrək Şahı Sevən olmuş, yəni, onun xidmətinə girmiş, buna qarşılıq özünə Azərbaycanda geniş dirliklər verilmişdir. Bu qısa izahatdan anlaşılacağı üzrə, Gün Doğmuş, Bozulus və ya Hələb Türkmənləri arasındakı Bəydilidən olub, buyruğundakı oymaqla Türkiyədən ayrılıb İrana getmişdir.

b. İnallu: İnallu da Hələb Türkmənlərinin ən ünlü qollarından biri olub, 15-ci yüzilin başlarından bəri Amasya tərəflərində də siyasi fəaliyyətdə bulunmuşdu. Bu çoxsaylı oymaq 15-ci yüzildən, bəlkə 14-cü yüzildən başlayaraq Anadolunun bir çox yerlərində yurd tutmuşdu. Sultan Məhəmməd dövründə Şamlunun adı keçən obasından Asan Oğlu Bilməs Bəy, Piri Bəy və oğlu Rza Qulu Bəy ilə Şah Verdi Xəlifənin adları keçir. Abbas dövründə isə Təhmasib Qulu Sultanı görürük.

c. Xudabəndəlü: Bu adın, Elxanlı hökmdarı Olcaytununku kimi əslində Xarbəndə olduğuna şübhə yoxdur. Abbas dövründə Xudabəndəlüdən Şah Əli Sultan, Əli və Hüseyin Bəylər vardı. Bunlardan Şah Əli Sultan hicri 1012 (1603-1604) tarixində İmanlu Avşarından Qasım Sultan ilə Həmədan bölgəsinə yürüyən Bağdad valisi Uzun Əhməd Paşanı yenib əsir almışlar. Əli və Hüseyin Bəylərə gəlincə Şah Abbas onlardan sonuncusunu elçilik ilə Hindistana göndərmişdi. Bunlara yenə bu dövr əmirlərindən Ulu Xan Sultan ilə Xəndan Qulu Sultanı əlavə edə bilərik. Xəndan Qulu Sultan hicri 1014-də (1605-1606) Osmanlılar ilə etdiyi savaşda Səfər Paşanı əsir almışdı. Şah Abbasın kitabxanaçısı, rəssam, şair Sadıq Bəy də əslən bu obadan, yəni Xudabəndəlüdən idi. Sadıq Bəy bir çox məziyyətləri nəfsində toplamış olmaqla yanaşı, eyni zamanda qövmi şüura sahib bir insandı. Məcmaül-xəvas adlı təzkirəsini Cağatay Türkcəsi ilə yazdığı məlumdur. Sadıq Bəy adı keçən əsərin üçüncü bölümündə eynən belə deməkdədir: «Ətrak rüknü's-səltənətləri zikrida kim əsas-i ma'murə-i padişahlığ oňlar vücudı birlə və şadırvan-i şövkət-i xaqanlıq aňlar sütunu birlə payidar irür»

Bu, şübhəsiz yalnız Sadıq Bəyin deyil, zamanındakı Səfəvi Qızılbaş əmirlərinin də duyğularını ifadə etməkdədir. Qacarlar dövründə də eyni duyğunun davam etdiyini bilirik. Anılan dövrlərdə Osmanlı aydınları bu məqamı idrak etmiş olsalar belə söyləmirdilər.

ç. Avcı: Avcıdan yalnız Vəli Xəlifəni tanıyırıq. Vəli Xəlifə Şah Məhəmməd dövrü əmirlərindən olub hicri 987 (1579-1580) tarixində Xorasanda bir yerin valiliyinə göndərilmiş isə də Damğanda yenilmiş və özü də öldürülmüşdür. Bu dövrdə Ustaclu Əli Qulu Xan ilə birlikdə dövlətə hakim olduğunu gördüyümüz İsmayıl Qulu Xan, Avcı Vəli Xəlifənin oğlu idi.

d. Biçərlü: Sultan Məhəmməd dövründə eşik ağası başılarından Hüseyin Qulu Sultan (988 = 1580-də öldürüldü) ilə oğlu Mehdi Qulu Sultan Biçərlü obasından olduqları kimi, Herat bəylərbəyisi Əli Qulu Xanın vəkili Mahmud Bəy də eyni oymaqdan idi. Şah Səfi dövründəki eşik ağası başılarından Murtaza Qulu Xanın da Biçərlüdən olduğu görünür. Murtaza Qulu Xanın daha öncə adları keçən əmirlərin yaxın əqrəbası olması ehtimalı yüksəkdir.

e. Əbdüllü: Bu obadan Hüseyin Bəy, xan ünvanı ilə Qum valisi və hökmdarın oxçu qorucusu olmuş, Heratın fəthi üzrə buraya vali təyin edilmişdir. Hüseyin Xanın hicri 1027-də (1618) vəfatı üzərinə Xorasan bəylərbəyiliyi oğlu Həsən xana verilmişdir. Həsən Xan Şah Səfi zamanında da uzun illər mövqeyini qorumuşdur.

f. Kəramətlü: Bu obadan Əli Qulu Bəy (Xan) Şah Məhəmməd dövründəki Xorasan valisi Əli Qulu Xanın yanında bulunurdu. Abbas taxta keçdikdən sonra sürətlə tərəqqi edərək eşik ağası başı və divan bəyi olmuşdur. Hicri 1034-cü ildə öldüyü zaman oğullarının uşaq yaşda olduğu

bildirilməkdədir. Abbasın Heratda kiçik yaşda yanında bulunan və hicri 1007-də (1598-1599) Hindistana elçilik ilə göndərilən Yüzbaşı Əli Bəy də Kəramətlüdən idi.

g. Acirlü yaxud Əcirlü: 16-cı yüzildə Hələb Türkmənləri arasında yaşayan Acurlu oymağının bunun ana qolu olması imkansız deyildir. Şah Abbas dövründə adı keçən obadan İmam Qulu Sultanı tanıyırıq. Şah Səfi zamanında isə yüzbaşılardan Saru Xan Bəy Əcirlülərin başı idi.

ğ. Ərəbgirlü: Ərəbgirlü Şah İsmayıl və Şah Təhmasib dövründə müstəqil bir oymaq olub, sonradan Şamluya daxil olmuşdur. Şah Abbasın ölümü əsnasında Azərbaycan əmirlərindən Haqq Verdi Sultan ilə Məhəmməd Qulu Bəy, Kamal Bəy və İsfəndiyar Bəy Ərəbgirlüdən idilər. Şərəf Xan Bitlisi Ərəbgirlülərin Kürd mənşəli olduqlarını söyləyir.

h. Nilqas: Şamluya sonradan daxil olan obalardan biri də budur. Bu obanın boy mənşəyi məncə məchuldur.

Şah Abbasın ölümü əsnasında Qur valisi Məhəmməd Zaman Sultan ilə Bala Murğab valisi Fəzl Əli Sultan da Şamludan idilər. Ancaq İskəndər Bəy bu əmirlərin hansı obalara mənsub bulunduqlarını bildirmir.

Şamludan Hüseyin Qulu Mirzə şeirə qabiliyyətli bir əmir idi. Adı keçən Hüseyin Qulu Mirzə atası kimi Şah İsmayılın mirahurluğunu etmiş, ancaq sonra vəzifəsindən çıxarılması üzərinə Hindistan hökmdarı Hümayunun xidmətinə girmişdir. Şamludan Yol Qulu Bəy ilə Qasım Bəy, Dura Bəy (Kirami) də şair idilər. Bunlardan Yol Qulu Bəy Xanlar Xanı Herat Bəylərbəyisi Əli Qulu Xanın kitabxanaçısı, Qasım Bəy də yenə Əli Qulu Xanın qaynı idi. Dura Bəy isə adı keçən bəylərbəyinin süfrəçilik vəzifəsində bulunmaqda idi.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**